№81 (2146)
1 noyabr 2024
www.medeniyyet.az

# Bölgələrin mədəniyyət mənzərəsi: müxtəlif səpkili xəbərlər

Abşeron-Xızı Regional Mədəniyyət İdarəsi (RMİ) tərəfindən Sumqayıt şəhərinin yaradılmasının 75 illik yubileyinə həsr olunmuş konsert proqramı təşkil edilib. “Kimyaçı” Mədəniyyət Sarayında keçirilən tədbirdə Sumqayıtın icra başçısı Zakir Fərəcov, digər rəsmilər, mədəniyyət işçiləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Sarayın foyesində mədəniyyət müəssisələri tərəfindən Sumqayıt şəhərinin 75 illik yubileyinə həsr olunmuş sərgiyə baxış keçirilib.

Tədbir konsert proqramı ilə davam edib. Konsertdə muğam ifaçıları və müğənnilər çıxış ediblər.





***





Qax rayon MKS-nin Cəfər Cabbarlı adına Mərkəzi Kitabxanasında detektiv yazıçı Elbrus Kəlbiyevlə “Sözlə ucalan insanlar” adlı görüş keçirilib. Görüşdə yazıçının həyat və yaradıcılığı ilə bağlı videoçarx təqdim edilib, çıxışlar dinlənilib. Sonda tədbir iştirakçılarının sualları müəllif tərəfindən cavablandırılıb.

***

Mərkəzi Aran RMİ-nin rəisi Aydın Bəşirov, idarənin və mədəniyyət müəssisələrinin əməkdaşları Vətən müharibəsi şəhidi Elvin Məmmədovun şəhadətə yüksəlməsinin növbəti ildönümündə ailəsini ziyarət ediblər.

Elvin Eldəniz oğlu Məmmədov 2001-ci il iyunun 25-də Ağdaş şəhərində anadan olub. Vətən müharibəsi zamanı Cəbrayıl istiqamətində yaralı əsgər yoldaşlarını döyüş bölgəsindən çıxararkən qəhrəmancasına şəhid olub. Ölümündən sonra bir sıra medallarla təltif edilib.

***

Şərqi Zəngəzur RMİ-nin tabeliyindəki bir sıra mədəniyyət müəssisələrində 25 oktyabr – Qubadlı Şəhəri Günü ilə bağlı tədbirlər keçirilib. Tədbirlərdə vətənpərvərlik ruhlu musiqi nömrələri ifa edilib, şeirlər söylənilib.





***

Lerik Rayon İcra Hakimiyyəti, rayon Polis şöbəsi, Mədəniyyət Mərkəzi və 1 nömrəli texniki fənlər təmayüllü məktəb-liseyin birgə təşkilatçılığı ilə “Narkomaniya, erkən nikah və kibercinayətkarlıqla mübarizə” mövzusunda maarifləndirici tədbir keçirilib. Mövzu ilə əlaqədar maarifləndirici qısa filmlər nümayiş olunub.

***

Qazax rayon MKS-nin Elmar Hüseynov adına Mərkəzi Kitabxanasında “Narkomaniya sərhədsiz fəlakətdir” adlı dəyirmi masa keçirilib. Çıxışlardan sonra narkomaniyanın fəsadlarından bəhs edən videoçarx nümayiş etdirilib.

***

Cəlilabad rayon Mədəniyyət Mərkəzinin təşkilatçılığı, Cəlilabad Xalq teatrı aktyorlarının iştirakı ilə “Zəfər yolu” tamaşası nümayiş olunub. Rayon Heydər Əliyev Mərkəzinin səhnəsində nümayiş olunan tamaşanı şəhid ailələri, qazilər, Lənkəran-Astara RMİ-nin Cəlilabad rayonu üzrə nümayəndəsi Fuad Əzizov, idarə və müəssisə rəhbərləri izləyiblər.

***

Masallı rayon Mərkəzi Kitabxanasında tanınmış şair, ictimai xadim Əli Tudənin (1924-1996) 100 illiyi münasibətilə tədbir keçirilib. Çıxışlarda qeyd olunub ki, Əli Tudə milli ədəbiyyatımızın görkəmli nümayəndələrindən biri olmaqla yanaşı, ictimai-siyasi xadim, inqilabçı kimi tarixdə iz qoyub. Cənubi Azərbaycanda qurulan Milli Hökumət süqut etdikdən (1945) sonra siyasi mühacir həyatı yaşayan şair dünya azərbaycanlılarının yaddaşında azadlıq carçısı kimi xatırlanır.

**Hazırladı: N.Məmmədli**